

*Nazilə GÜLTAC*

## YÜK

Əllərimdə,
çiynimdə yük.
Ürəyimdə,
zehnimdə yük.
Ağlım çəkən yükü
ürəyim daşıya bilmir.
Bulud yüklü qayğılar
çətirdi başımın üstə.
Yüklənmişəm
dəli-dolu duyğularla.
Dəniz yüklüdü gəmilərim.
Gəmi yüklüdü kədərim.
Asılıbdı göz yaşımdan sevincim.
Yük olub taleyimə alın yazım.
Yüklərdi yaşam tarazlığım.
Yük olmuşam ömrümə, yük.
Atlı qarışqadı ömrüm,
yük daşıyır, özündən böyük.

* * *

Ölüm ayrılıq deyil,
ölüm elə olumdu.
Ölüm toxuna bildiyin
donmuş göz yaşı.
Adını yazdığın
soyuq baş daşı.
Dəmir çəpər içində
gül kolu,
həmişəyaşıl şam ağacı.
Ölüm ayrılıq deyil,
ayrılıq ölümdən betər.



* * *

Ürəyim bir dünyadı,
Dörd qütbü var.
Səni şimalında yaşadıram,
üşüyür sənli nə var.
Cənubunda fidan ümidlər,
ulduz- ulduz çiçəkləyir gecələr.
Buludlar beşiyidi-
Ay gözümdə gecələr.
Qərbində əsir küləklər,
əsirlikdədi illər.
Şərqində günəş doğur,
hər səhər.

## DƏSMAL

Dedin dəsmal ayrılıqdı,-
Gəl, onu mənə vermə.
Nə də hədiyyə etmə.
- Dəsmal bir ayrılıqsa.
Yuyarsan göz yaşınla,
mənə yollarsan.
Sevgimlə qurudaram,
qayıdarsan.

## NİGARANAM

Yol gəlirəm baxışına,
İslanmışam yağışına,
Buludundan nigaranam.

Yadlar gəzən obasından,
Həm qışından, baharından,
Sabahından nigaranam.

Bəxt yolları dərə - təpə,
Dərdi köksümdə bir təpə,
Dağından nigaranam.

Ana yurdun gülzarından,
Lilparından, yarpızından,
Bulağından nigaranam.

Başına qara bağlayan,
Naləsi sinə dağlayan,
Qarabağdan nigaranam.